# XX əsrin soyqırımın finalı - Xocalı soyqırımı



*Mais* Əmrahov
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor***

1813-cü ildən Azərbaycan torpaqlarını ikiyə bölən, sonrakı mərhələlərdə vətənimizin torpaqlarını hərraca qoyan çar Rusiyasıməmləkətimizi hissə-hissə öz dindaşlarına və müttəfiqlərinə "hədiyyə" etmişdir. XX əsrin sonlarında baş verən hadisələr - 20 Yanvar faciəsi və Xocalı soyqırımıcə çar Rusiyasının varisi sovet imperiyasının işğalçılıq siyasətinin son akkordları idi.

Tarixin yaddaşının qanlı səhifələrindən yarpaqlar.

1813 və 1828 - ci il müqavilələrinə qədər Azərbaycan ərazisi təxminən 410 min kv. km olmuşdur. 1813-1828-ci illərdə Azərbaycan ərazilərinin bir hissəsi-sahəsi 280 min kv.km. Cənubi Azərbaycan ərazisi İran əsarəti altına düşmüşdür. Rusiya əsarəti altına düşən ərazi isə 130 min kv. km olmuşdur. 1918-ci ildə Rusiyanın təzyiqi ilə ərazisi 9 min kv. km olan İrəvan xanlığı ermənilərə verilmiş, Rusiyanın əsarəti altında keçən və sahəsi 7 min kv. km olan Dərbənd xanlığı yaradılmışdır. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi 114 min kv. km olmuşdur. 1920-ci ildə ADR-i işğal edən Rusiya sovet imperiyası Azərbaycan ərazilərini bölüşdürərək 29.338,2 kv. km ərazisini Ermənistan və Gürcüstana hədiyyə etmişdir. Bu ərazilərdən İrəvan (qalan hissəsi) (3.100, 2 kv. km), Zəngəzur (çox hissəsi) (5.115, 4 kv. km), Qazax (2.980, 3 kv.km), Dərələyəz (1.583, 8 kv.km) Ermənistana, Borçalı (bir hissəsi) (5.161,4 kv.km.), Sıqnax (6.832, 6 kv. km) və bir sıra başqa ərazilər (4.564, 6 kv. km.) Gürcüstana verilmişdir. 1920-1991- ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi 86,6 min kv. km olmuşdur.

Azərbaycanlılara qarşı ermənilərin soyqırımı əsrin əvvəllərindən başlamışdır. 1905 -1907-ci illərdə Bakıda baş verən qırğın polis və ordunun gözləri qarşısında baş vermişdir. M.S.Ordubadinin sözlərincə desək, iki il davam edən erməni-azərbaycanlı qırğını Bakıdan sonra İrəvan, Naxçıvan, Şuşa, Cəbrayıl, Qaryagini və digər bölgələri əhatə etmiş, qırğına çar hökuməti rəvac vermişdir.

Azərbaycanlılara qarşı növbəti məqsədyönlü soyqırımı 1918-ci ilin 30-31 mart və aprelin 1-də (köhnə təqvimlə martın 17-də, Novruz bayramı ərəfəsində) törədilmişdir. 1918-ci il martın 30-31-də bəhanədən istifadə edərək erməni dəstələri azərbaycanlıların yaşadığı kvartallara hücuma keçmiş, Qırmızı Ordu qərargahının rəisi S.Avetisyan, dəstə rəhbəri Amazasp və Kozarev azərbaycanlılara xüsusi ilə şiddətli divan tutmuşlar. Martın 31-də atəş xüsusilə geniş vüsət almış, döyüşlərin ən qanlı nöqtəsi Qoşa Qala qapısı və "İsmailliyə" binaları ətrafı olmuşdur. Bakının cənub kəndlərinə hücum edən ermənilər Mərdəkan, Bülbülə, Binə və Qala kəndlərinə buraxılmamışlar. 30 mindən çox əhali qətlə yetirilmişdir. Daşnaklar Bakı və onun ətrafında "...3 gün ərzində 15.000 müsəlmanı öldürmüş, "İsmailliyə" sarayı, "Açıq söz", "Kaspi" mətbəsinə od vurmuş, Bakının ən böyük cümə məscidi top mərmiləri ilə dəlik-deşik edilmişdir...".

Azərbaycanlıların kütləvi şəkildə öldürülməsi ətraf bölgələrdə də baş vermişdir. Amazaspın rəhbərliyi altında Qubaya gedən qoşun hissələri şəhərə daxil olaraq 2.000 kişi və qadını, uşağı öldürmüşdülər. Amazaspqubalılar qarşısında çıxış edərək demişdir: "Mən erməni xalqının qəhrəmanıyam ...Mən bura qayda-qanun yaratmaq və sovet hakimiyyətini qurmaq üçün gəlməmişəm. Mən Xəzər dənizinin sahillərindən Şahdağına qədər bütün müsəlmanları məhv etmək, onların yaşayış yerlərini yerlə yeksan etmək əmri ilə gəlmişəm".Amazaspın 1918-ci ildə törpətdiyi soyqırıma QubaSoyqırımı MemorialKompleksi canlı şahiddir.

Ermənilər 1918-ci ilin martınadək İrəvan quberniyasının 197 kəndini darmadağın etmiş, 10.626 nəfər türk əhalisi qırğına məruz qalmışdır. Qarabağda 157 kənd ziyan çəkmiş, Bakı quberniyasında 33 yaşayış məntəqəsi büsbütün, 196-sı isə qismən dağıdılmışdır.

Qırğın Cənubi Azərbaycan ərazisində və Türkiyənin ayrı-ayrı vilayətlərində də davam etdirilmişdir. Bakıda törətdikləri qırğınlardan ürəkləri soyumayan və Cənubi Azərbaycanın Qərb hissəsində xristian hökuməti yaratmaq istəyən ermənilər Urmiya, Səlmas və Köhnəşəhərdə 130 mindən artıq yerli müsəlman əhalini son dərəcə acınacaqlı və faciəli şəkildə qırıb tökmüşdülər. Həmin ərəfədə"-general" Andranik başda olmaqla 8 min silahlı erməni Arazdan keçərək Xoy şəhərinə hücum edib qırğın törətmişdilər.

Urmiyada öldürülənlərin əksəriyyətini günahsız arvad-uşaq, hətta südəmər körpələr təşkil edirdi. Qars vilayətində müsəlman kəndləri dağıdılmışdır. Kanteliyanın teleqramında bildirilirdi ki, "...general Arişev və kapitan Movsesyanın vəhşilikləri nəticəsində Qars vilayətində 82 müsəlman kəndi məhv edilmişdir". ADR hökuməti tərəfindən yaradılmış "Mart hadisələrini yoxlayan komissiya" üzvlərindən biri, xristian Külqenin hazırladığı sənəddə göstərilir ki, "Müsəlmanların sakin olduqları məhəllələrə girib əhalini öldürmüşdülər, şəmşirlə parçalamışdılar. 3-4 günlük südəmər uşaqları süngüyə taxmışdılar. Hadisənin sonunda 57 müsəlman meyidi müşahidə olundu ki, bunların qulaqları, burunları qoparılmış, qarınları yırtılmış, əzaları kəsilmişdir. Öldürmədikləri qadınları saçları ilə bir-birinə bağlayaraq tüfəng qundaqları ilə döymüşdülər". İzaha ehtiyac yoxdur və bu vəhşiliyin bir adı var: ermənilik!

Azərbaycan xalqına qarşı törətdilən soyqırımı nəticəsində Bakıda, Şamaxıda, Qubada, Müğanda və Lənkəranda 50 mindən artıq azərbaycanlı qətlə yetirilmiş, evləri talan edilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 minədək adam, o cümlədən 1.653 qadın, 965 uşaq öldürülmüş, Quba qəzasında 122 müsəlman kəndi yerlə-yeksan edilmişdir. Qarabağın dağlıq hissəsində 150-dən çox, Zəngəzur qəzasında 115 müsəlman kəndi vəhşicəsinə dağıdılmış, əhalinin xeyli hissəsi qılıncdan keçirilmişdir. İrəvan qəzasında 88 kənd dağıdılmış, 1.920 ev yandırılmış, 131.970 nəfər öldürülmüşdür. Törədilmiş faciələrin nəticəsi idi ki, 1916-cı ildə İrəvan quberniyasında yaşayan 373.582 nəfər azərbaycanlı əhalidən 1922- ci ildə cəmi 70 min nəfər qalmışdır. Əgər sadaladığımıza 1948-1953-cü illərdəki faciələri, 1988-ci ildən sonra bir milyondan artıq soydaşımızın yurd-yuvalarından qovulmasını, başqa sözlə etnik təmizləmə siyasətinin nəticələrini əlavə etsək erməni separatçılarının Azərbaycan türklərinin başına gətirdiklərinin nəticələri gözümüz qarşısında canlanar.

Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi hərəkatının "qızışdırılması" və nəticələri.1985-ci ildə SSRİ daxilində başlanan "yenidənqurma"dan istifadə edən ekstremist əhval-ruhiyyəli yuxarı erməni dairələri fəallaşaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini yenidən ortaya atdılar. Ermənistanın Moskva havadarları və Ermənistan rəhbərləri başda Sov.İKP MK-nın baş katibi M.S.Qorbaçov olmaqla "1988-1995-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" qərar qəbul edildi. Ancaq məqsəd "Böyük Ermənistan" yaratmaq olduğundan erməni təcavüzkarları bununla sakitləşmədi, 1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası çağırılaraq, vilayətin Azərbaycandan ayrılması və Ermənistana birləşdirilməsi haqqında qərar çıxardılar. Azərbaycanlıların yaşadıqları kəndlərə təşkçil edilən silahlı hücumlara,əhalinin əmlakının talan olunmasına Moskva susurdu.




1989-cu ilin noyabrında Azərbaycan üçün mühüm strateji əhəmiyyət daşıyan Göygöl yolu ermənilər tərəfindən tutuldu. Yolun tutulması ilə onlarla azərbaycan kəndi ilə gediş-gəliş kəsildi. Baş verən hadisələr Sovet ordusu əsgərlərinin gözü qarşısında cərəyan edirdi. Dağlıq Qarabağ üzrə Xüsusi İdarə Komitəsi (XİK-nin tərkibində 5 nəfər rus, 2 nəfər erməni və cəmi 1 nəfər azərbaycanlı var idi) və onun rəhbəri, Şuşa seçki dairəsindən SSRİ Xalq deputatı seçilmiş Arkadi Volski Moskva və İrəvanın mövqeyində olduğundan heç bir əməli tədbir görmürdü.

1991-ci ilin iyun-dekabr aylarında erməni silahlı qüvvələrinin Xocavəndin Qaradağlı və Əsgəran rayonunun Meşəli kəndinə hücumu nəticəsində 12 nəfər öldürüldü, 15 nəfər yaralandı. Həmin ilin avqust və sentyabr aylarında Şuşa-Cəmilli, Ağdam-Xocavənd və Ağdam-Qaradağlı avtobuslarının erməni silahlı dəstələri tərəfindən atəşə tutulması nəticəsində 17 nəfər həlak oldu, 90 nəfərə qədər azərbaycanlı yaralandı. Ümumilikdə, qeyd olunan illər ərzində Dağlıq Qarabağda ermənilər tərəfindən 514 nəfər azərbaycanlı qətlə yetirilmiş, 1318 nəfər yaralanmışdı.

Fevral ayının 10-11-də Şuşanın Malıbəyli və Quşçular kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olundu, əhalisi etnik təmizləmə və soyqırımına məruz qaldı. Fevralın 13-dən 17-dək Xocavənd rayonunun Qaradağlı kəndinə silahlı hücum zamanı 118 nəfər (uşaq, qadın, qoca) əsir götürüldü, 33 nəfər ermənilər tərəfindən güllələndi. XX əsrin sonunda qəddarlığı ilə seçilən Qaradağlı soyqırımı artıq Xocalıya gedən yolun başlanğıcı idi.

Xocalı soyqırımı. XX əsrdə Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri 1992-ci ilin fevralında törədilən Xocalı soyqırımıdır. Erməni qaniçənləri Rusiyanın Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə əlbir olaraq XX əsrin Xatın, Sonqımı faciələrindən daha dəhşətli soyqırımı törətdilər.

Niyə Xocalı?Xocalı Azərbaycanın qədim dövrlərinə aid ərazilərdən biri kimi tarix və mədəniyyət abidələri ilə seçilirdi. Qədim Xocalı ərazisi e.ə. XIV-VII əsrlərə (son tunc - ilk dəmir dövrü) aid Xocalı-Gədəbəy mədəniyyəti arxeoloji abidələri ilə tanınmışdır. Xocalı şəhəri XVI - XVII əsrlərdə Qarabağ (Gəncə) bəylərbəyliyinin tərkibində olmuşdur. Xocalı yaxınlığındakı Əsgəran qalası Qarabağ xanlığının banisi Pənahəli xanın dövründə inşa edilmişdir (1749-cu il). Xocalı rayonu şimalda və şimal-şərqdə Ağdam rayonu, şimal-qərbdə Kəlbəcər və qərbdə Laçın rayonları, cənubda Şuşa, cənub-qərbdə isə Xocavənd rayonu ilə həmsərhəd idi.

Xocalı şəhəri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində strateji əhəmiyyətli ərazi kimi ermənilərin işğalçılıq planlarına mane olurdu. Çünki Xocalı Xankəndidən 12 kilometr şimal-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşirdi. Şəhərin əhəmiyyətini artıran səbəblərdən biri də Dağlıq Qarabağın yeganə hava limanının məhz burada yerləşməsi idi. Buna görə Ermənistan silahlı qüvvələrinin əsas məqsədi Xocalıdan keçən Əsgəran-Xankəndi yoluna nəzarət etmək və Xocalıda yerləşən aeroportu ələ keçirmək idi.

1992-ci il fevralın 25-də saat-21-də erməni hərbi birləşmələri, 1.890 nəfər şəxsi heyəti olan 366-cı alay, habelə xaricdən gətirilmiş muzdlular Xocalıya hücum etdilər. Hava limanına vurulan zərbələr vurulsa da, şəhər müdafiəçiləri-Xüsusi Təyinatlı Milis dəstəsinin rəisi, milis mayoru Əlif Hacıyev və onun 22 nəfərlik dəstəsi mərdliklə müdafiə olundular. Qeyri-bərabər döyüşün nəticələrini başa düşən Ə.Hacıyev hava limanının dispetçer məntəqəsini partlatdı və qəhrəmanlıqla həlak oldu. Ölümündən sonra ona Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verildi.

Düşmən tankları və zirehli maşınları artilleriya hazırlığından sonra Mehdikənd, Qərargah və Daşbulaq tərəfdən Xocalıya soxuldular. Ermənilərin komandanlıq etdiyi 366-cı alayın komandiri mayor Ohanyan olan ikinci, komandiri mayor Nabokixın olan üçüncü motoatıcı tabor, topçu diviziyası, Lixodeyevanın rəhbərliyi altında D-3 topu xüsusi vəhşilik göstərdilər.

Düşmən alaylarına qarşı qeyri-bərabər döyüşdə Tofiq Hüseynovun taboru xüsusi mərdliklə vuruşdu. Son gülləsini özünə vuran Tofiq Hüseynov da Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Düşmən əsgərləri müxtəlif istiqamətlərdən Xocalıya soxularaq şəhəri yandırdılar. Müdafiəsiz qalan şəhər əhalisi-əsasən qadınlar, uşaqlar və qocalar Ağdam istiqamətinə üz tutmuş, əhalinin bir hissəsi qarlı-şaxtalı gecədə həlak olmuş, sağ qalanlar səhərisi gün Qaraqaya adlı yerdə pusquda dayanan erməni əsgərlərinin gülləsinə tuş gəlmişdilər.

Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədildi. 613 nəfər, o cümlədən 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürülmüş, 1000-dən artıq dinc sakin şikəst olmuş, 1.275 nəfər əsir götürüldü, 8 ailə tamamilə məhv edildi, 56 nəfər diri-diri yandırıldı.

Ermənistan silahlı birləşmələri Xocalı sakinlərinə qarşı soyqırımı törədərkən 111 nəfəri Xocalıda, mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş Xocalı sakinlərini təqib edərək 16 nəfəri Kətik meşəsində, 130 nəfəri Naxçıvanik yolunda, 23 nəfəri Qaraqaya ətrafında, 23 nəfəri Dəhraz kəndi yaxınlığında, 8 nəfəri Şelli istiqamətində, 6 nəfəri Əsgəran asfalt yolunun 86-cı kilometrində və s. yerlərdə, əsir götürülənlərdən 18 nəfərini isə Əsgəran Rayon Daxili İşlər Şöbəsində işgəncə verərək xüsusi amansızlıqla qətlə yetirmişlər.

Ağdamda 181 meyidin (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından müəyyən edilmişdi ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Dövlətə və vətəndaşların şəxsi əmlakına 5 milyard dəyərində (01.04.1992-ci il tarixinə olan qiymətlərlə) küllü miqdarda zərər vermişdir.

Xocalı faciəsi Azərbaycanda böyük əks-sədaya, siyasi gərginliyə səbəb olmuş, nəticədə Azərbaycan Ali Sovetinin sədri Elmira Qafarova və prezident Ayaz Mütəllibov istefa vermişlər.

Sadalananlar məsələnin rəsmi statistikasıdır. Bəs əslində vəziyyət necədir? Bax? bu sualın cavabı dünya dövlətlərinə məlum olsa da, soyqırımından 30 il keçməsinə baxmayaraq əsil həqiqət dünya ictimaiyyətindən gizlədilir, daha doğrusu soyqırıma şərait yaradanlar;n əməllərini etiraf etməyə cəsarətləri çatmır. Faktlara nəzər salaq.

İşğal olunmuş Dağlıq Qarabağ ərazisi ermənilər tərəfindən terror məskəninə çevrilmişdir. 1992-ci ilin yanvar ayında Paris yaxınlığında qeyri-leqal məxfi təlim düşərgəsi yaratmış "ASALA" təşkilatının bir qrup üzvü- 6 nəfərlik dəstə mayor Aşin Simonyanın başçılığı ilə Xankəndinə gəlmişdir. Həmin il fevral ayının 19-da İrəvanın Teatr meydanında Firdos Ərəbyan adlı livanlı bir erməni emissarı dünya ermənilərinin "iqtisadi gəlir mənbəyi" kimi ad çıxarmış "Qaregin" erməni mərkəzində 13 varlı erməninin imzaladığı məktubu oxumuşdur. Məktubda deyilirdi: "...Oyanmış xalqa eşq olsun! Müdrikliyini, ağlı və idrakını dərk edən, babalarımızın, əcdadlarımızın külünü təzədən alışdıran erməni qəhrəmanlarını alqışlamaqla yanaşı, onlara dünya ermənilərinin salamlarını yetirirəm. Parisdə, Kölndə, Romada, Vaşinqtonda, Küveytdə, Londonda, Moskava və Ankarada, Tehran və Latın Amerikasında...ayağa qalxan ermənilər sizinlədir...Biz sizə hər cür yardıma hazırıq..."

Dağlıq Qarabağın bombalanmasında, yaşayış yerlərinin viran qoyulmasında Tsinvali və Telavi helikopter bazaları yaxından iştirak etmişdir. Zaqafqaziya Hərbi Dairəsinin generalı Valeri Pasrikyevin sərəncamına əsasən burada təşkil olunmuş xüsusi kurslarda helikopterləri idarə edəcək 16 erməni pilotu hazırlanmışdır. Kurs müdavimləri içərisində milliyyətcə ərəb olan və "Həmas" təşkilatından qovulmuş Zahid əl-Məhəmməd adlı birisi də olmuşdur. "Telavidə çıxan "Eskadrilya" qəzeti 1992-ci il 20 fevral tarixli sayında yazırdı ki, 1992-ci il fevralın 12-də və 16-da Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsin Telavi helikopter bazasında kursu bitirmiş erməni pilotlarına

O.Sarkisyan və polkovnik Ter-Qriqoryan tərəfindən 25 fevralda vurulan teleqramda bildirilirdi ki, "...respublikanın yüksək çinli təhlükəsizik əməkdaşları təsdiq edirlər ki, son günlərdə 4 tam diviziya və 7 briqadadan ibarət türk hərbi qüvvələri Ermənistanla sərhəddə toplaşmışdır. Ordu II Dünya müharibəsi dövründə müşahidə olunmayan hərbi döyüş hazırlığına gətirilmişdir".

Tarixi cinayət hazırlayanlar teleqramı Yeltsinin başçılıq etdiyi Təhlükəsizlik Şurasının iclası üçün hazırlamış və iclasa Ermənistan prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Aşot Manuçaryan dəvət olunmuşdur. Manuçaryan müşavirədəki çıxışında gələcək planlarının bir hissəsini dolayası ilə ifadə edərək bildirmişdir ki, "Yaxın vaxtlarda Türkiyə Azərbaycanın xahişi ilə Qarabağ konfliktinin həlli məqsədilə köməyə gələ bilər. Bu Ermənistanla sərhəddi pozmadan Azərbaycanla Naxçıvan ara-



yeni və dəqiq hərbi uçuşa malik "Mi-24 P" markalı helikopterlərin verilməsi haqqında 7-ci ordunun Baş komandanı, general-mayor Reuta göstəriş vermişdir. Polkovnik Leonid Kapralovun başçılığı ilə iki "Mi-8" helikopteri Gəncə helikopter zavodunda təmir olunmuşdur. Beləliklə, Xocalı istiqamətində hərbi hazırlığın təməli qoyulmuş, Dağlıq Qarabağ istiqamətində döyüşə hazır vəziyyətdə dayanmış helikopterlər üçün Bakıdan 200 ton yanacaq alınmışdır. Fevralın 17-də Zori Balayan Telavi hərbi bazasında ermənilərlə görüşmüş, fevralın 19-da general Reut Moskvanın 17 fevral tarixl sərəncamına əsasən 16 erməni üçün 9 müxtəlif markalı hərbi helikopter ayırmış və fevralın 22-də həmin helikopterlər 366-cı alayın tərkibinə daxil edilmişdir. Vertolyotların pilotları Livan, Suriya və İrəvan erməniləri, birinin pilotu isə Zahid Əl-Məhəmməd idi.

Hücuma hazırlıq fevralın 25-də axşam, 366-cı alayın hərbi texnikasının şəhərin ətrafına, döyüş nöqtələrinə çıxarılması ilə başlandı. Bu hadisələr zamanı vasitəçilik missiyası ilə regiona İran İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayəti gəlmişdi. Fevralın 25-də Bakıda Azərbaycan rəhbərliyi ilə görüşən Əli Əkbər Vilayəti fevralın 27-də Qarabağa və sonra da Ermənistana uçmalı idi. Bununla əlaqədar olaraq, tərəflərin razılaşmasına əsasən fevralın 27-dən martın 1-nə kimi üç günlük atəşkəs elan olundu.

Cöründüyü kimi, Xocalıya hücum üçün hər şey hazır idi. Qalırdı Mərkəzin razılığını almaq. Bunun üçün ermənilər hiyləyə əl ataraq Kremlə qızışdırıcı teleqramar göndərdilər. Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsinə general

sında olan 9 kilometrlik ümümi sərhəddə baş tuta bilər. Ermənistan ərazisinin pozulması da istisna deyildir". Deməli, Naxçıvanla Azərbaycanı birləşdirən sərhəddin ələ keçirilməsi gələcək planın tərkib hissəsi idi.

Xocalıya ilk paket fevralın 25-də saat 16oo- da Zahid Əl-Məhəmməd tərəfindən atılmışdır. Xatırladaq ki, atılan hər raket üçün 280 dollar mükafat da müəyyənləşdirilmişdir. Döyüşdə fərqləndiyi üçün Zahid Əl-Məhhəməd və Suren Pirimyan "Qızıl xaç" ordeni ilə təltif olunmuşlar. Zahid Əl-Məhəmməd martın 3-də həlak olmuş, müdafiə naziri, indiki prezident Serj Sarkisyanın göstərişi ilə İrəvanda Erablur hərbi qəbiristanlığında dəfn olunmuşdur.

02270 saylı hərbi hissənin əks-kəşfiyyatının materiallarınən aydınlaşdırılmasından aydın olmuşdur ki, 366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlinə keçmişdi. Üstəlik, Fransadan göndərilən 142 ədəd avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd zirehli gödəkçə, 11 ton konservləşdirilmiş yemək, min iki yüz cüt ayaqqabı (altı cür ölçüdə), 146 ədəd tapança ermənilərin istifadəsinə verilmişdi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylanılmışdı.

Doğrudur, soyqırım iştirakçılarına dair sənədlər 1992-ci il martın 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı, general-mayor Lukaşovun əmri ilə yandırılmışdır. Ancaq polkovnik V.Savelyevin "Məxfi" arayışı hər şeyə aydınlıq gətirməyə imkan verdi.

Kimdir Vladimir Savelyev. Vladimir Savelyev sovet zamanında Dağlıq Qarabağda yerləşmiş və SSRİ-nin süqutundan sonra nəzarətsiz qalıb Ermənistanın əlinə keçmiş 366-cı alaydakı 2270 nömrəli hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi olmuşdur. Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin şahidi olan polkovnik 1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayının 19-da, 1998-ci il avqust ayının 22-də, nəhayət 2000-ci ilin iyul və dekabr aylarında BMT-yə və Avropa Şurasına Xocalıda baş verən hərbi cinayətlər barədə "Məxfi arayış"ını təqdim etmişdir. O, son arayışlarını "zabit Puqaçov" imzası ilə göndərmişdir. Həmin arayış və erməni mənbələrinin etirafları Xocalı soyqırımının bir sıra gizlinlərinə dünya miqyasında aydınlıq gətirmişdir. Polkovnik erməni terror təşkilatları ilə Rusiya qoşun birləşmələrinin Dağlaq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək fakt və sənədlərdə, "agentura" gücü ilə əldə etdiyi informasiyalarda bütün olub-keçənlərin şərhini verib etiraf edir: "Mən ... uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım məxfi arayışı həm Kremlə, həm də MN BQİ-nin generallarına göndərdim. Oxuyun dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi.

Mən Bakıdakı hadisələri də izləyirdim. Hiss olunurdu ki, Prezident Ayaz Niyazoviçi aldadıb tora salıblar. O, kələfin ucunu itirmiş, hər şeyi nəzarətdən çıxarmış, qarşıdurmanın mərkəzində dayanmış, nüfuzunu itirmiş ali baş komandandır. Azərbaycan hərbi əks-kəşfiyyatına gəlincə belə bir qurum iflic olub. Aldığımız məlumata görə, bu qurumun əməkdaşları əsas məsələlərə girişə bilmirdilər. Prezident Xocalıda nəyin baş verməsini dərk etmirdi".

Polkovnik V.Savelyevin "Məxfi" arayışında meyidləri yığıb yandıran, azərbaycanlı əsirləri sıraya düzüb güllələyən və bundan həzz alan rütbə sahiblərinin, əsgəri şərəfi ləkələyən 41 nəfər erməni və rus zabitlərinin adları vardır: Onlar arxa cəbhə üzrə alay komandirinin müavini polkovnik B.Baymukov, birinci batalyonun komandiri polkovnik İ.V.Moiseyev, ikinci batalyonun komandiri mayor S.İ.Ohanyan, üçüncü batalyonun komandiri mayor E.A.Nabokix, birinci batalyonun qərargah rəisi mayor V.İ.Çitçiyan, alayın kəşfiyyat rəisi mayor V.Q.Hayriyan, rota komandiri baş leytenant O.V.Mirzaxayzarov, kəşfiyyat bölməsinin rəisi baş leytenant S.V.Xrinxua, tank rotası komandiri baş leytenant V.N.Qarmaş, rota komandirləri baş leytenant N.T.Hakopyan və baş leytenant V.İ.Valilovski, bölmə komandiri bölmə komandiri baş leytenant A.B.Lısenko, batareya komandiri baş leytenant V.A-.Azarov, tank əleyhinə batareya komandiri baş leytenant İ.S.Abraimov, üçüncü tank rotasının komandiri leytenant O.V.Balezni, tank bölməsinin komandiri leytenant A.V.Smakin, mühəndis-istehkam rotası komandir leytenant S.İ.Raçkovski, kəşfiyyat rəisinin müavini leytenant V.İ.Bondaryev, radiokimyəvi bölmənin rəisi leytenant A.İ.Kulov (eləcə də 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslər) olmuşlar.

Polkovnik V.Savelyev bildirir ki, Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran da elə İvan Moiseyevin batalyonu olub. Bu batalyon ermənilər arasında "İvanın vəhşi batalyonu" kimi tanınıb.

Bundan başqa, Ermənistan hərbi qüvvələrinin müasir hərbi texnika ilə Xocalıya genişmiqyaslı hücum etməsi, eləcə də yüzlərlə ailəni məhv etməsi haqqında 1992-ci il fevralın 28-də "Washington Post" (ABŞ), martın 8-də "The Sunday Times" (London) qəzetlərinin və martın 25-də ""Krua l`Eveneman" (Paris) jurnalının və bir sıra dövri nəşrlərin səhifələrində də əsaslı faktlar vardır.

*(Davamı var)*